Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 295 (8022) ŞƏNBƏ, 29 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Prezident İlham Əliyev son üç gündə məcburi köçkünlərə böyük bayram sevinci yaşatdı

Müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişaf yolu keçən Azərbaycanın qazandığı bütün uğurlar otuz ildir davam edən müharibə şəraitində əldə edilib. Bir tərəfdən siyasi və iqtisadi müstəqilliyini təmin etməyə çalışan dövləti möhkəmləndirmək, digər tərəfdən işğalçı Ermənistanın hərbi təcavüzü nəticəsində doğma el-obasından didərgin düşmüş 1 milyondan çox vətəndaşının sosial qayğısı ilə məşğul olmaq gündəlik fəaliyyət proqramına çevrilib.

### Dövlətin əsas qayğısına çevrilən məsələ

Doğma ocaqlarından didərgin salınmış soydaşlarımızın bütün qayğıları, problemləri dövlətin gündəlik qayğısına çevrilib. Əlavə edək ki, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə Azərbaycan dünyada ilk yerlərdən birini tutur. 1 milyona yaxın qaçqın və məcburi köçkünə 30 ildən çox müddətdə qayğı göstərmək həddindən artıq böyük bir yükdür.

Tarix unudulmur... yurdundan didərgin düşmüş qaçqın və məcburi köçkünlərimizin acınacaqlı durumu, həqiqətən də indi keçmişə baxanda dəhşətli mənzərəni xatırladır hər kəsə. Respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox obyektdə müvəqqəti yaşamağa məhkum olan insanların böyük əksəriyyəti 12 çadır düşərgəsində, 16 fin tipli yığma evlərdən ibarət qəsəbədə, ferma, yeraltı qazma və yol kənarlarında, dəmir yolu üzərindəki yük vaqonlarında, ictimai binalarda, yataqxanalarda, təhsil müəssisələrinə məxsus binalarda və uşaq bağçalarında, sanatoriya, pansionat, istirahət evlərində, turist bazalarında, tikintisi yarımçıq qalmış binalarda, qohum evlərində və digər kommunal şəraiti olmayan, sanitar normalara cavab verməyən yerlərdə çox ağır şəraitdə məskunlaşmışlar.

### Yük vaqonları, yataqxana, çadır düşərgəsindən tam təmirli mənzillərə

Ulu öndər Heydər Əliyevin bu istiqamətdəki fəaliyyətini 2003-cü ildən yeni dövrün tələblərinə uyğun davam etdirən İlham Əliyevin prezidentlik fəaliyyətinin prioritetlərindən birini məhz bu siyasət təşkil etdi və Azərbaycan bu təbəqədən olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən, yüksək nəticələr əldə edən ölkə kimi tanındı.

2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət komplekslər salındı.

Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000, dekabrın 27-də isə Sumqayıt şəhərində 1005 qaçqın və məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksləri bir daha göstərdi ki, İlham Əliyev bu təbəqədən olan insanların ən böyük hamisidir. Beləliklə, üç gündə iki şəhərciyin açılışı 2005 ailəyə sevinc payı bəxş etdi. Bununla da bu il ərzində mənzillə təmin edilən məcburi köçkün ailələrinin sayı 6805-ə, inşa olunan yaşayış komplekslərinin sayı isə 102-ə çatdı.

Abşeron rayonunun ərazisində tikilən şəhərciyin açılışı zamanı çıxış edən dövlət başçısı il ərzində bu qədər məcburi köçkün ailəsi üçün fərdi evlərin tikilməsini rekord göstərici adlandırdı.

Prezident bütün köçkün ailələrinin normal şəraitlə təmin olunacaqlarını deyərək bəyan etdi ki, işğal altında olan torpaqlar azad ediləndən sonra orada şəhərlər, kəndlər yenidən qurulacaq. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda da salınacaq. Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndinin 3 ay müddətində bərpası bunu təsdiq edən real faktdır.

### Sosial problemlər üçün 7,1 milyard manat vəsait xərclənib

Ümumilikdə, bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2 min 74 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib.

Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı - əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

### Sözlə əməlin vəhdət nümunəsi

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsini təşkil etmək, maddi nemətlərin ədalətli bölgüsünə nail olmaq, daxili siyasətin sosialyönümlüyünü ön planda saxlamaq, vətəndaşların sosial rifah halını yaxşılaşdırmaqdır.

Hakimiyyət sükanının arxasında durduğu ilk gündən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağını vəd edən və ötən 15 il ərzində sözlə əməlin vəhdət nümunəsini ortaya qoyan İlham Əliyev bütün səy və bacarığını respublikamızın davamlı inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi cəhətdən çiçəklənməsinə sərf etməkdədir.

Sözlə əməlin vəhdəti şəxsiyyətin bütövlüyünü təsdiq edən əsas şərtdir. Söz sahibinin fəaliyyəti xalqın diqqət mərkəzində olanda, hər addımı ictimaiyyət tərəfindən maraqla izlənəndə sözügedən fikrin məna yükü dəfələrlə artır. Göründüyü kimi, cənab İlham Əliyev son 15 ildə bu təbəqədən olan insanların sosial rifahının yaxşılaşdırılması, problemlərinin həlli istiqamətində çox mühüm addımlar atıb.

Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Doğum gününü hər zaman məcburi köçkünlərlə birgə qeyd edən və sözü ilə əməli arasında heç bir fərq olmayan Prezident İlham Əliyev bu il də on minlərlə məcburi köçkün ailəsinə sevinc bəxş edərək böyük savab qazanmış oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***





## Paytaxtın müasir yol infrastrukturunun yaradılması istiqamətində mühüm addım

### Prezident İlham Əliyev Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən yeni yolun açılışında iştirak edib

Dekabrın 28-də Böyükşor gölünün üzərində inşa edilən və paytaxtın Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən ümumşəhər əhəmiyyətli yeni avtomobil yolunun açılışı olub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına layihənin texniki göstəriciləri barədə məlumat verdi.

Ziya Bünyadov prospekti ilə Balaxanı-Binəqədi avtomobil yolunu birləşdirən, paytaxtın nəqliyyat sistemində mühüm əhəmiyyətə malik yeni yolun tikintisi 2017-ci ilin yanvarında və bu ilin mayında Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən həyata keçirilib. Uzunluğu 2,7 kilometr olan yolun tikintisi yüksək keyfiyyətlə və sürətlə aparılaraq yekunlaşdırılıb. Yeni yol Böyükşor gölünün iki hissəyə bölünməsi məqsədilə çəkilən 1570 metr uzunluğundakı bəndin üzərindən keçir. Yeni yol dörd hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilib. Yolboyu 16 yol nişanı quraşdırılıb.

*Ardı 2-ci səh.*

## Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci isə Türkiyənin sevincidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, bu il bu münasibətlərin daha da yüksək zirvəyə qalxdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin dövlət başçıları arasında həm Azərbaycanda, həm Türkiyədə, həm də beynəlxalq tədbirlərdə keçirilən görüşlərin və çoxsaylı təmasların əlaqələrimizin daha da möhkəmlənməsi baxımından xüsusi rol oynadığını bildirdi. Dövlət başçısı bu il, eyni zamanda, bir çox mühüm birgə layihələrin, o cümlədən TANAP və STAR layihələrinin açılış mərasimlərinin olduğunu qeyd edərək, siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə çox gözəl əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev bu il Türkiyə Prezidentinin iştirakı ilə keçirilən Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradı dostluq və qardaşlıq münasibətlərimizin parlaq təzahürü kimi dəyərləndirdi. Dövlətimizin başçısı qarşıdan gələn ilin də Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında uğurlu il olacağına əminliyini ifadə etdi və Türkiyənin daxili işlər naziri Süleyman Soylunun Azərbaycana səfərinin əməkdaşlığımızın genişlənməsi işinə töhfə verəcəyini dedi.

Qəbula görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri Süleyman Soylu, ilk növbədə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə xalqının salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Türkiyə-Azərbaycan əlaqələrinə toxunan Süleyman Soylu qeyd etdi ki, əlaqələrimiz böyük lider, görkəmli dövlət xadimi Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzərində qurulub və bu gün uğurla inkişaf edir. O bildirdi ki, Azərbaycan və Türkiyə dövlətləri başçılarının uğurla inkişaf etdirdiyi bu əlaqələr bu gün regiona və dünyaya böyük töhfə verir və qardaşlıq münasibətlərinin bir nümunəsidir. Türkiyəli nazir qeyd etdi ki, başda Dağlıq Qarabağ məsələsi olmaqla Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci isə Türkiyənin sevincidir.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

## *Mehriban ƏLİYEVA:*

## "Mən ölkəmizin hər bir uşağına, hər bir balacasına öz hədsiz məhəbbətimi çatdırıram"

Dekabrın 28-də Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları ərəfəsində uşaqlar üçün ənənəvi şənlik təşkil edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə hər il keçirilən bayram şənliyində uşaq evlərinin sakinləri, internat məktəblərinin şagirdləri, xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələr, eləcə də şəhid ailələrindən olan uşaqlar iştirak edirlər.

*Ardı 3-cü səh.*



# Paytaxtın müasir yol infrastrukturunun yaradılması istiqamətində mühüm addım





*Əvvəli 1-ci səh.*

Yolun əvvəlində və sonunda uzunluqları 320 və 274 metr olan iki tunel də inşa edilib. Tunellərin hərəkət hissəsinin eni 28 metrdir. Tikinti işləri çərçivəsində yeni yolun giriş və çıxış hissələrində qovşaqlar da tikilib. Yol boyunca müasir işıqlandırma sistemi qurulub, dörd avtobus dayanacağı quraşdırılıb.

Qeyd edək ki, yeni avtomobil yolunun inşası nəticəsində sürücülər həm Xırdalan-Binəqədi-Balaxanı avtomobil yoluna, həm də Ziya Bünyadov prospektinə rahat çıxış əldə edəcəklər. Belə ki, avtonəqliyyat vasitələri “20 Yanvar” dairəsindən istifadə etmədən Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolu ilə Xırdalan dairəsi ərazisindən Xırdalan, Masazır qəsəbələrinə, həmçinin Sumqayıt şəhərinə və bu istiqamətdə yerləşən digər qəsəbələrə, bundan başqa, Binəqədi, Mehdiabad, Digah, Fatmayı, Goradil, Pirşağı qəsəbələrinə rahat hərəkət edəcək. Xırdalan-Binəqədi-Balaxanı avtomobil yolundan Zabrat-Maştağa avtomobil yoluna çıxmaqla isə bu istiqamətdə yerləşən qəsəbələrə rahat gediş-gəliş təmin olunacaq. Bundan başqa, həmin qəsəbələrin sakinlərinə Ziya Bünyadov prospektinə çıxmaqla şəhər mərkəzinə rahat və qısa yolla hərəkət etmək imkanı yaranacaq. Bununla da həm məsafə qısalacaq, həm vaxt itkisi azalacaq, xüsusilə də günün pik saatlarında istər Ziya Bünyadov prospektində, istərsə də Heydər Əliyev prospektinin metronun “Koroğlu” stansiyasının qarşısından keçən hissəsində müşahidə olunan nəqliyyat sıxlığı aradan qaldırılacaq.







Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və yeni layihələrin icrası davam etdirilir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.

Sonda xatirə şəkli çəkdirildi.

## Ş.K.Məmmədovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şahin Kərim oğlu Məmmədov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## Binəqədi rayonunda abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Binəqədi rayonunda abadlıq-quruculuq tədbirlərinin davam etdirilməsi, o cümlədən Ayna Sultanova adına parkda yenidənqurma işlərinin aparılması məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Binəqədi Rayon İcra Hakimiyyətinə 1,5 milyon (bir milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 28 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Fərəhli, Aşağı Əskipara, Qızılhacılı, Tovuz rayonunun Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## Pilotsuz uçuş aparatları mütəxəssislərinin Təlim-Tədris Mərkəzinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən ordumuzun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi istiqamətində fəaliyyətlər davam etdirilir.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa olunan Pilotsuz Uçuş Aparatları (PUA) Mütəxəssislərinin Təlim-Tədris Mərkəzinin açılışında iştirak ediblər.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzin əsas məqsədinin Azərbaycan Ordusunun arsenalındakı müxtəlif növ PUA-lar üzrə yüksək peşəkar kadrların hazırlanması olduğu məruzə edilib. Qeyd olunub ki, tədris mərkəzində quraşdırılan ən müasir avadanlıq və trenajorlar, həmçinin keçirilən nəzəri və praktiki məşqlər tədris prosesinin yüksək keyfiyyətlə aparılmasına, müxtəlif əməliyyat, taktiki və meteoroloji şəraitdə PUA-ların funksional sistemlərinin təmin edilməsi və PUA heyətlərinin döyüş tapşırıqlarının vaxtında və yüksək dəqiqliklə yerinə yetirilməsi vərdişlərinin təkmilləşdirməsinə imkan verir. Bildirilib ki, mərkəz elmi-texniki işin aparılmasını, bu istiqamətdə qabaqcıl təcrübələrin öyrənilməsini və yeni PUA sistemlərinin sınaq yoxlamalarının keçirilməsini də təmin edir.







Müdafiə Nazirliyinin rəhbərliyi mərkəzin mühəndislər, operator-pilotlar, uçuşların təhlili, simulyator, eləcə də digər xidməti və inzibati otaqları ilə tanış olub.

Mərkəzin anqarında saxlanılan, yerli istehsal olan müxtəlif təyinatlı PUA-lara və ərazidə quraşdırılmış çoxməqsədli stansiyaya baxış keçirən müdafiə nazirinə onların taktiki-texniki xassələri və tətbiqi imkanları barədə məruzə edilib.

Sonra müdafiə naziri mərkəzin maddi-texniki və tədris bazasının genişləndirilməsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

## Azərbaycanın və Türkiyənin daxili işlər orqanları arasında səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Süleyman Soylunun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfərə gəlib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dekabrın 28-də türkiyəli qonaqlar Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı “Əbədi məşəl” kompleksini və Türk şəhidliyini ziyarət ediblər.

Daha sonra daxili işlər naziri, general-polkovnik Ramil Usubov türkiyəli həmkarı Süleyman Soylunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə Ramil Usubov Azərbaycanın müstəqilliyinin bərpasından sonra Türkiyə ilə əlaqələrin sürətlə inkişaf etdiyini diqqətə çatdırıb, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, dahi şəxsiyyətin “Bir millət, iki dövlət” siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

General-polkovnik Ramil Usubov Daxili İşlər Nazirliyinin funksional vəzifələri və fəaliyyət istiqamətləri, müstəqilliyin ilk illərində respublikamızda hökm sürən gərgin ictimai-siyasi və kriminogen durum, ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra həyata keçirilən islahatlar, əmin-amanlığın bərpa edilməsi, əməliyyat şəraitinin nəzarətə götürülməsi barədə qonaqlara məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan sabitliyin yaradıldığını qeyd edən nazir bildirib ki, kriminogen durumun tam nəzarətə götürülməsi, ilk növbədə vətəndaşlarımızın, həmçinin əcnəbilərin, xarici investorların, o cümlədən türkiyəli iş adamlarının Azərbaycanın iqtisadiyyatına sərmayə qoymalarına, respublikamızda təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, təhlükəsizliyin də möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xüsusi önəm verildiyini, bu gün Azərbaycan Polisinin, Daxili Qoşunların peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə müsbət nəticələr qazandığını nəzərə çatdıran nazir bütün bu işdə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin də xüsusi rolunu, xidmətini məmnunluqla xatırladıb. Nazir buna görə Süleyman Soylunun şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkürünü bildirib.

Nazir Ramil Usubov türkiyəli həmkarı Süleyman Soylunun daxili işlər naziri kimi Azərbaycana ilk səfərinin əlaqələrimizin inkişafına və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib. O, iki ölkənin müvafiq qurumları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da iştirak edib.

## *Mehriban ƏLİYEVA:*

# “Mən ölkəmizin hər bir uşağına, hər bir balacasına öz hədsiz məhəbbətimi çatdırıram”













*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva uşaqların bayram şənliyində iştirak etdilər.

Həmişə olduğu kimi, bu dəfə də uşaqlar şənliyin keçirildiyi məkana onlar üçün ayrılmış avtobuslarla gəldilər. Xüsusi zövqlə bəzədilən və balacaların ixtiyarına verilən bu məkan uşaqları sevindirmək üçün bayram əhvali-ruhiyyəsində, nağıllar aləmini xatırladan dizaynla tərtib olunub.

Bayram şənliyi ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşündən, gənc nəslə diqqət və qayğısından bəhs edən videoçarxın nümayişi ilə başladı.

Artıq ənənəvi xarakter alan şənlikdə hər il olduğu kimi, bu il də uşaqlara səhnələşdirilmiş nağıl və musiqili-əyləncəli proqram təqdim edildi.

Bu proqram əsasında “Buta” sarayında balacalar üçün qurulan dekorasiyalar uşaqların əhvali-ruhiyyəsini daha da artırdı. Bər-bəzəkli sarayda rəqslərə qoşulan, mahnılar ifa edən, məharətlərini göstərən uşaqların sevinci hədsiz idi. Çünki Heydər Əliyev Fondunun təşkil etdiyi bayram və bu şənlikdə tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı. Bayram şənliyində uşaqların sevinci, üzlərindəki təbəssüm bu xoş əhvali-ruhiyyəni onlara yaşadan Heydər Əliyev Fondunun fəaliyyətinə verilən ən yüksək qiymət idi.





Hər il olduğu kimi, bu dəfə də balacalar onların ən böyük himayədarı Mehriban Əliyevanın ətrafına toplaşdılar. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların sevinc və fərəhini bölüşdü, onlarla səmimi söhbət etdi.

Nağıl və musiqili-əyləncəli proqrama uşaq evlərinin sakinləri, yaradıcı uşaqlar və yeniyetmələr - ümumilikdə 500-dək heyət, o cümlədən Azərbaycanın tanınmış estrada ulduzları cəlb olunmuşdu. Balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında gözəl həyəcan hisləri doğurdu. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng etdi.

Qış nağılını xatırladan sarayda uşaqlar bayram ərəfəsində sevimli qəhrəmanların əhatəsində oldular, onlarla birlikdə şənləndilər.

Azərbaycanın gələcəyi sabahın gəncləri hesab olunan bu günün fidan balalarının əlində olacaq. Ölkəmizdə uşaqlara qayğı Azərbaycan dövlətinin siyasətinin prioritet istiqamətlərindəndir. Yeni nəslin sağlam böyüməsi dövlətin və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqətdə saxlanılır, onlara xüsusi məhəbbət, diqqət və qayğı var. Uşaqların layiqli vətəndaş kimi böyüməsi, cəmiyyətdə sağlam mövqe tutması üçün Azərbaycan dövləti hər cür şərait yaradıb.

Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar xalqımızın övladlarının taleyində əhəmiyyətli rol oynayır. Son illər ərzində sürətli iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycanda yeni tibb ocaqları, təhsil müəssisələri, idman-sağlamlıq kompleksləri istifadəyə verilib. Onların böyük əksəriyyəti bu gün birbaşa uşaqların sərəncamındadır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gördüyü işlər də ölkəmizdə bu istiqamətlərdə formalaşan ənənələrin hələ uzun illər yaşayacağına zəmanət verir. Azərbaycanda uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda uşaqlarla bağlı mühüm layihələr reallaşdırılır. Fondun fəaliyyəti Azərbaycanın gələcəyi hesab edilən uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının səfərbər edilməsinə yönəlib. Bütün bunlar uşaqlarımızın hərtərəfli inkişafı, müasir beynəlxalq standartların tələblərinə cavab verən təhsil, səhiyyə xidmətləri ilə təmin olunması üçün edilir. Fond tərəfindən bu istiqamətdə həyata keçirilən müxtəlif layihələr Azərbaycanın ən qiymətli milli sərvəti olan uşaqların - genofondumuzun qorunub saxlanmasına və daha da inkişafı işinə xidmət edir.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin həllinə xüsusi diqqət yetirir. Cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun 14 illik çoxşaxəli fəaliyyəti də məhz bu nəcib dəyərlərə söykənir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış etdi.

### Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Əziz uşaqlar, hörmətli müəllimlər, hörmətli valideynlər.

Artıq 15 ilə yaxındır ki, biz birlikdə ötən ili yola salırıq, keçmiş illə vidalaşırıq və yeni ili qarşılayırıq.

2018-ci il ölkəmiz üçün çox əlamətdar il idi. Yüz il bundan əvvəl Azərbaycan xalqı müsəlman dünyasının ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdır. Bu il - 2018-ci ildə biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyini həm ölkəmizdə, həm bir sıra xarici dövlətlərdə ən yüksək səviyyədə qeyd etmişik.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa oldu. Lakin bu qısa zamanda ölkəmiz, xalqımız üçün çox vacib olan addımlar atıldı, qərarlar qəbul edildi. İlk çoxpartiyalı parlament fəaliyyətə başladı, ölkəmizin bayrağı təsis edildi, qızlar üçün ilk dünyəvi məktəb fəaliyyətə başladı, Azərbaycan Ordusu yaradıldı. Biz bu il, həmçinin Azərbaycan Ordusunun 100 illiyini qeyd etdik. Bu münasibətlə ölkəmizin baş meydanında keçirilən möhtəşəm parad bir daha göstərdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır, istənilən vəzifəni icra etməyə qadirdir və hazırdır. Biz bu il, həmçinin Bakının azad olunmasının 100 illiyini birlikdə qeyd etdik.

Ölkəmizin tarixində şərəfli yer tutan bütün bu hadisələrin yüksək səviyyədə keçirilməsi onu göstərir ki, müstəqil Azərbaycan bu gün böyük uğurla inkişaf edir. Azərbaycan bu gün güclü, qüdrətli ölkədir. Azərbaycan dünya xəritəsində öz layiqli yerini tutub. Azərbaycan öz sözünü söyləyən, öz maraqlarını qoruyan dövlətdir. Biz inanırıq ki, siz - bu günün uşaqları, bu günün gəncləri gələcəkdə Azərbaycanın inkişafına, ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə öz töhfənizi verəcəksiniz.

Yola saldığımız 2018-ci ilə nəzər salsaq görərik ki, ölkəmizin inkişafı yüksək sürətlə davam edir. Bu il bir sıra çox vacib layihələr həyata keçirilib, yeni islahatlara start verilib. Dünya Bankının hesabatında Azərbaycan 10 islahatçı dövlət sırasına daxil edilib. Bu il biz həm ölkəmizin, həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin qorunmasında mühüm rol oynayan “Cənub qaz dəhlizi” layihəsinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsini qeyd etdik. Bu il, həmçinin növbəti telekommunikasiya peyki “Azerspace-2” orbitə buraxıldı.

Sosial sahəyə gəldikdə deməliyəm ki, Azərbaycan dövləti sosialyönümlü siyasət aparır. Sosial sahədə olan problemlərin həlli daim Azərbaycan dövlətinin və Azərbaycan hökumətinin diqqət mərkəzindədir. Son iki il ərzində 5000-dən çox məcburi köçkün və qaçqın ailəsi müvəqqəti olaraq yeni evlərlə, yeni mənzillərlə təmin edildi. Məktəblərin, bağçaların tikilməsi, təmiri və ya yenidən qurulması, yeni olimpiya idman komplekslərinin inşası davam edir. Bütün bu uğurları, görülən işləri, əldə etdiyimiz nailiyyətləri görərək biz daha da səmərəli işləməyə ruhlanırıq, xalqımıza daha da səmərəli xidmət etməyə hazırıq.

Əziz uşaqlar, siz bilməlisiniz ki, Azərbaycan kimi ölkədə yaşamaq xoşbəxtlikdir. Azərbaycan sülhsevər, sabit ölkədir və biz hər zaman öz müstəqilliyimizi, sabitliyimizi və təhlükəsizliyimizi qoruyacağıq. Görülən bütün işlər, atılan addımlar sizin gələcək xoşbəxtliyiniz naminədir. Bizim əsas amalımız gələcəkdə sizi mənəvi və fiziki cəhətdən sağlam, güclü, savadlı, Azərbaycanın layiqli vətəndaşı kimi görməkdir.

Əziz uşaqlar, əziz valideynlər, əziz dostlar. Mən ümidvaram ki, 2018-ci il sizin üçün uğurlu oldu və sizin xatirənizdə xoş anlarla yaşayacaq. Mən ölkəmizin hər bir uşağına, hər bir balacasına öz hədsiz məhəbbətimi çatdırıram. Əziz müəllimlər, sizin hər birinizə öz dərin minnətdarlığımı çatdırıram. Hər il Heydər Əliyev Fonduna dəstək göstərən və “Buta Palace”da bu şənlikdə iştirak edən və bu bayram ab-havasını yaradan bizim istedadlı sənət adamlarına öz dərin minnətdarlığımı bildirirəm.

Əziz dostlar, sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizə möhkəm cansağlığı, uğurlar, xoşbəxtlik, Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram. Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun! Qoy, Azərbaycanın səması daim açıq, dinc və aydın olsun! Sizi təbrik edirəm. Çox sağ olun.

***

Beləliklə, Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli fəaliyyətin bir hissəsi olan bayram şənliyi yüzlərlə uşağı sevindirdi. Şənliyin sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri, o cümlədən Bakı Kitab Mərkəzinin Yeni il ərəfəsində uşaqlar üçün nəşr etdiyi kitablar verildi.

Heydər Əliyev Fondunun balacalara töhfəsi olan bu bayram şənliyi uşaqların yaddaşında silinməz iz qoydu.

# 31 iclas, 463 qanun, 45 ölkəyə 135 səfər

## Payız sessiyasını başa vuran Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam yerinə yetirib

Dünən Milli Məclisin payız sessiyasının son iclası keçirildi. Gündəliyə müzakirə olunması üçün 52 məsələ daxil edilmişdi. Bu səbəbdən də cari məsələlərə vaxt ayrılmadı və birbaşa gündəliyin müzakirəsi başlandı.





### 3 deputata yeni vəzifə verildi

İlk olaraq parlament Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin vəzifədən azad edilmələri haqqında sənədi təsdiqlədi. Həmçinin Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi ilə bağlı parlamentin qərarında dəyişikliklər edilməsi barədə qərar layihəsi səsə qoyularaq qəbul edildi *(Qərar qəzetimizin bugünkü sayında dərc edilib)*.

İlk sənədə əsasən Naxçıvan Ali Məhkəməsinin iki hakimi vəzifəsindən azad olunub. Layihədə Məhkəmə-Hüquq Şurasının təkliflərinin nəzərə alınaraq Polad Həsənovun və Qabil Məmmədovun vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar Naxçıvan Ali Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi təklif edilib.

İkinci sənədin təsdiqlənməsi ilə Milli Məclisin 3 parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yeni rəhbərləri təyin olunub. Belə ki, Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri vəzifəsinə deputat Xanlar Fətiyev, Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri vəzifəsinə deputat Sahibə Qafarova, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri vəzifəsinə isə deputat Cavanşir Feyziyev seçilib.

### Ələt Azad İqtisadi Zonası ilə bağlı 75 sənədə dəyişiklik edildi

Milli Məclisin Sədri Oqtay Əsədov bildirdi ki, gündəliyin 3-19-cu məsələləri "Ələt Azad İqtisadi Zonası haqqında" qanun layihəsinə uyğunlaşdırma məqsədi daşıyır. Sənədlərlə bağlı məlumat verən Milli Məclis Sədrinin müavini Valeh Ələsgərov isə dedi ki, "Atmosfer havasının mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Yerin təki haqqında" qanunlarda, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İcra haqqında", "İnzibati icraat haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Notariat haqqında", Su, İnzibati Xətalar, İnzibati Prosessual, Miqrasiya, Mülki, Mülki Prosessual, Gömrük, Vergi, Şəhərsalma və Tikinti məcəllələrində, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Auditor xidməti haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihələr "Ələt Azad İqtisadi Zonası haqqında" qanunun tələblərinə uyğunluğu nəzərdə tutur.

Bundan başqa, daha bir neçə sənədə - "Elektron ticarət haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Haqsız rəqabət haqqında", "Xarici investisiyanın qorunması haqqında", "İcarə haqqında", "İcbari sığortalar haqqında", "İxrac nəzarəti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Kommersiya sirri haqqında", "Qrant haqqında", "Lisenziyalar və icazələr haqqında", "Müflisləşmə və iflas haqqında", "Mühasibat uçotu haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Poçt haqqında", "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lotereyalar haqqında", "İpoteka haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Torpaq icarəsi haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Məşğulluq haqqında", "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihələrinə eyni dəyişikliklər təsdiqləndi.

Spiker Oqtay Əsədov vurğuladı ki, "Ələt Azad İqtisadi Zonası haqqında" qanuna uyğunlaşdırmaq məqsədi daşıyan 75 sənədə dəyişiklik edildi.

### Bəzi qanunlar sərtləşdirilir

İclasda həmçinin "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında", "Əhalinin dövlət reyestri haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Hesablama Palatası haqqında", "İstehsalat və məişət tullantıları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də səsverməyə çıxarılaraq qəbul edildi.

Qeyd edək ki, sonuncu sənədə edilən dəyişikliyə əsasən, əlvan və qara metal tullantılarının qəbulu fəaliyyətini yalnız qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin dövlət reyestrində təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirə bilər.

Bununla bağlı İnzibati Xətalar Məcəlləsində də dəyişiklik edilir. Dəyişikliyə əsasən, təhlükə potensiallı obyektlərin dövlət reyestrində qeydiyyatdan keçirilməməsinə görə fiziki şəxslər 500 manatdan 1000 manatadək, vəzifəli şəxslər 2500 manatdan 3500 manatadək, hüquqi şəxslər 5000 manatdan 10000 manatadək məbləğdə cərimə edilir.

### İcbari tibbi sığorta haqları müəyyənləşdi

Gündəlikdəki "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov dedi ki, mövcud qanun 1999-cu ildə qəbul edilib və günün tələblərinə cavab vermir. Layihədə qeyd olunub ki, xidmətlər zərfinin baza hissəsi üzrə - təqvim ili üçün adambaşına 29 manat ödənilir.

Sığortalı tərəfindən - hesablanmış əməyin ödənişi fondunun 2 faizi; Sığortaolunan tərəfindən - işçinin əməkhaqqının 2 faizi.

Bu qanunun 15-2.3.3-cü (Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsi və ya Mülki Məcəlləyə uyğun olaraq mülki-hüquqi müqavilə əsasında işləmədiyi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmadığı hallarda) maddəsində qeyd olunan şəxslər üzrə təqvim ili üçün adambaşına 120 manat; Azərbaycan ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və ölkə ərazisinə idxal olunan avtomobil benzininin dizel yanacağının və maye qazın hər litrinə görə 0,02 manat; energetik içkilərə (alkoqollu və alkoqolsuz) və elektron siqaret üçün mayeyə aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,1 manat; tütün məmulatlarına aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,05 manat; alkoqollu içkilərə aksiz markasının verilməsinə görə - verilən hər bir aksiz markasına görə 0,1 manat; avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortalı üzrə ödənilən təqvim haqqının 50 faizi; "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanuna əsasən sığortalının sığorta müqaviləsi üzrə sığortaçıya ödədiyi sığorta haqqının 5 faizi dərəcəsində müəyyən edilir.

İcbari tibbi sığorta haqları icbari tibbi sığorta fonduna ödənilir.

Müzakirələr zamanı çıxış edən deputatlardan Vahid Əhmədov, Elmira Axundova dəyişikliklərin müsbət nəticələr verəcəyindən söz açdılar. İclasda iştirak edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev isə bəzi məsələlərə aydınlıq gətirdi.

### Pilot layihədə 5-6 min manat əməkhaqqı alan həkimlər var

Zaur Əliyevin sözlərinə görə, Azərbaycanın 3 şəhər və rayonu Mingəçevir, Yevlax və Ağdaşda keçirilən pilot layihələr zamanı əsas məqsəd əhaliyə əlçatanlığı təmin etmək və xəstəxanaların maliyyələşmə mexanizmini dəyişməkdir.

Əvvəllər xəstəxanalar çarpayı və həkimlərin sayına görə maliyyələşirdi. Pilot layihələr həyata keçirilən ərazilərdə maliyyələşməni tamamilə dəyişərək onların göstərdiyi xidmətə görə maliyyələşmə həyata keçirilib. Layihə həyata keçirilən ərazilərdə həkimlərin və tibb işçilərinin əməkhaqlarında dəyişiklik olunub.

Pilot layihə olduğu üçün müvəqqəti olaraq baza əmək haqları üzərinə göstərdikləri xidmətlərə görə həkimlərə müəyyən bonuslar hesablanıb. Onların əməkhaqqında kifayət qədər yüksəlmə olub: "Pilot layihədə elə həkimlərimiz var ki, 5-6 min manat əməkhaqqı alırlar. Orta tibb işçilərinin əməkhaqqında da kifayət qədər yüksəlmə olub. Göstərilən tibbi xidmətlərə gəldikdə isə, əməliyyat xidmətlərinin sayı 52 faiz artıb. Bilirsiniz ki, ölkədə ölümlər daha çox ürək-damar xəstəlikləri ilə bağlıdır. Layihə icra olunan ərazilərdə ölüm sayı azalıb".

Dəyişiklik layihəsi müzakirə olunduqdan sonra səsverməyə çıxarılaraq qəbul edildi.

### Parlament dünya azərbaycanlılarına müraciət qəbul etdi

İclasda qeyd edildi ki, gündəlikdəki bir sıra məsələlərə Dünya Bankının "Doing Business" hesabatının tövsiyələrinə uyğun dəyişikliklər edilməsi nəzərdə tutulub. Bunlar Gömrük, İnzibati Xətalar, Mülki, Mülki Prosessual, Əmək, Şəhərsalma və Tikinti məcəllələrində dəyişiklik edilməsi haqqında, "Dövlət satınalmaları haqqında", "Dövlət rüsumu haqqında", "Yol hərəkəti haqqında", "Məhkəmələr və hakimlər haqqında", "İpoteka haqqında", "İcra haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Banklar haqqında", "Pasportlar haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında layihələrdir.

Dəyişikliklər ayrı-ayrılıqda səsverməyə çıxarılaraq qəbul edildi.

Qeyd edək ki, hər il payız sessiyasının sonuncu iclasında Milli Məclisin dünya azərbaycanlılarına müraciəti qəbul olunur. Ənənəyə uyğun olaraq dünənki iclasda da həmrəylik günü münasibətilə Milli Məclisin müraciətinin təsdiq edilməsi haqqında qərar layihəsi təqdim olundu.

Milli Məclis Sədrinin müavini Bahar Muradova müraciəti *(mətn qəzetimizin bugünkü sayında dərc edilib)* səsləndirdi və sonra sənəd səsverməyə çıxarılaraq təsdiqləndi.

### Milli Məclis ili uğurla başa vurur

İclasa yekun vuran Milli Məclisin Sədri Oqtay Əsədov payız sessiyası dövrünü dəyərləndirdi. Sədr dedi ki, qanunvericilik ilinə yekun vurulur. Görülmüş işlərə nəzər salsaq, inamla söyləmək olar ki, bu il də parlament səmərəli fəaliyyət göstərib. 31 iclas keçirilib, 463 qanun qəbul edilib. Yəni Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətləri tam yerinə yetirilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərini parlament səviyyəsində dəstəkləmək üçün lazımi tədbirlər görülüb. Bu il Milli Məclisin beynəlxalq əlaqələrinin intensivliyi baxımından çox məhsuldar olub. Nümayəndə heyətlərimiz beynəlxalq təşkilatların fəaliyyətində yaxından və çox yüksək səviyyədə iştirak ediblər. İl ərzində 45 ölkəyə 135-dən çox səfər həyata keçirilib. Deputatlarımız Türkiyədə keçirilən prezident və parlament seçkilərində, Rusiyada, Gürcüstanda və Monteneqroda keçirilən prezident, Latviyada keçirilən parlament seçkilərində müşahidəçi kimi fəal iştirak ediblər.

Spiker vurğuladı ki, bu il 85 xarici dövlətin və 27 beynəlxalq təşkilatın 160-dan çox nümayəndə heyəti, ümumilikdə 2050 nəfər deputat və əcnəbi vətəndaş Milli Məclisə gəlib, Azərbaycanın parlamenti ilə tanış olub, Azərbaycan haqqında fikirlər yaradıb və getmişlər.

Beynəlxalq təşkilatların xətti ilə 9 tədbir keçirilib: "Əlbəttə, ən möhtəşəm tədbirimiz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir idi. Bu tədbirdə dünyanın 44 ölkəsindən nümayəndələr iştirak edirdi. Siz hamınız bu tədbirin iştirakçısı oldunuz və bunun nə qədər təntənəli səviyyədə həyata keçirildiyini gördünüz. Eləcə də bu yaxınlarda Parlamentlərarası İttifaqın Gənc Parlament üzvlərinin 5-ci Qlobal Konfransı Azərbaycanda keçirildi. Çox maraqlıdır ki, bu iclasda da dünyanın 44 ölkəsinin 180 nəfər nümayəndəsi iştirak edib. Həmin iclas Milli Məclisin plenar iclas zalında keçirildi. Burada iştirak edən gənclər Azərbaycan haqqında çox yüksək təəssüratla qayıtdılar. Bir daha Azərbaycana gəlmək istədiklərini vurğuladılar. Nəzərə alaq ki, bu gənclər gələcəkdə öz ölkələrində aparıcı qüvvələr olacaqlar".

Milli Məclisin 2018-ci ilin iclaslarının çox uğurla keçdiyini deyən Oqtay Əsədov parlament adından Prezident İlham Əliyevə təbrik məktubu hazırlanacağını söyləyərək payız sessiyasını bağlı elan etdi. Dövlət himnimiz səsləndi.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

---

### "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə

#### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi məqsədi ilə **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2016-cı il 4 mart tarixli 161-VQR nömrəli Qərarının 2, 17 və 25-ci bəndləri aşağıdakı redaksiyada verilsin:

2. Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

**Fətiyev Xanlar Nuru oğlu.**

17. Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

**Qafarova Sahibə Əli qızı.**

25. Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu:

**Feyziyev Cavanşir Əyyub oğlu.**

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

---

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Milli Məclisin MÜRACİƏTİ

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Tarixin gedişi və taleyin hökmü ilə dünyanın dörd bir yanına səpələnmiş Azərbaycan xalqının övladlarını öz milli varlığı, ölkəsinin və soydaşlarının taleyi haqqında düşünməyə səsləyən Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi səmimi qəlbdən salamlayırıq.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 28 il öncə milli-mənəvi bütövləşmə hərəkatının başlanğıcının qoyulması yeni dövrün salnaməsinin ən mühüm siyasi hadisələrindən biri olub. Dövlət müstəqilliyimizlə yaşıd olan bu hərəkat sonrakı dövrdə geniş vüsət alıb, dünya azərbaycanlıları ilə əlaqələrin gücləndirilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib.

Azərbaycan xalqı qədim və zəngin dövlətçilik ənənələri ilə haqlı olaraq fəxr edir. Tarix boyu xalqımızın yaradıcılıq enerjisinin və zəkasının gücü ilə qurulmuş qüdrətli dövlətlər dünya sivilizasiyasının inkişafına dəyərli töhfələr veriblər.

İyirminci yüzilliyin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın dövlətçilik potensialının yeni şəraitdə təzahür etməsi və qəlbində yaşatdığı müstəqillik arzusunun gerçəkləşməsi idi. Yüz illiyini qeyd etdiyimiz ilk müstəqil dövlətimiz təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi inkişafında ayrıca bir mərhələ təşkil edib.

İyirminci əsrin sonlarında yenidən dövlət müstəqilliyinə qovuşan Azərbaycan Respublikası tarix baxımından qısa müddətdə qərinələrə bərabər yol keçib. Bu yolun əsas göstəriciləri ümummilli liderimiz Heydər Əliyevin xidmətləri sayəsində siyasi və dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun həyata keçirilməsi, vətəndaş cəmiyyəti elementlərinin, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, qanunun aliliyinin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması kimi səciyyələndirilə bilər.

Ulu öndərin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilməkdədir. Azərbaycan Respublikası bu gün Cənubi Qafqaz bölgəsinin lider dövlətinə və dünya azərbaycanlılarının qürur yerinə çevrilib.

Azərbaycançılıq amalının şüurlarımızda və qəlblərimizdə möhkəm yer tutmasına yönələn düşünülmüş tədbirlər həyata keçirilir, xarici ölkələrdəki Azərbaycan icmaları ilə əlaqələr gücləndirilir. Müstəqilliyin bərpasından öncə dünyanın müxtəlif bölgələrində bir-birindən çətinliklə xəbər tutan soydaşlarımız arasında bu gün möhkəm bağlar yaranıb. Bütün bunlar həm sayına, həm də intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın mütəşəkkil qüvvə kimi formalaşmasına, tarix səhnəsində ənənəvi mühüm rolunu bərpa etməsinə yol açır.

Azərbaycan Respublikası bütün azərbaycanlıların ata-baba yurdu olduğuna görə dünyanın müxtəlif qitələrində yaşayan soydaşlarımızın övladlıq borcu Vətənimizin taleyüklü problemlərinin həllinə kömək göstərməkdir. Qarabağ dərdi hamımızın ağrılı yeridir. Bütün dünya azərbaycanlıları səylərini artırsalar, bu problemin həllini daha da yaxınlaşdıra bilərlər.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın zəngin mədəniyyətinin təbliğ edilməsi sahəsində də görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, dilimizi, adət-ənənələrimizi uca tutmaq, milli hüquqlarımızı qorumaqdır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza isə işıqlı gələcək arzulayırıq.

*Hörmətlə,*
***Azərbaycan Respublikasının Milli Məclisi***

---




# Azərbaycan Respublikası Hesablama Palatasının sədri "Parlament" medalı ilə təltif edilib

Azərbaycan Respublikasının Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikası Milli Məclisinin Sədrinin 27 dekabr 2018-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası parlamentinin fəaliyyətinə verdiyi dəstəyə görə Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin "Parlament" medalı 2018-ci ildə Milli Məclisin yaranmasının 100 illik yubileyi şərəfinə təsis edilmişdir.

---

# Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti bayram ərəfəsində sərhədçilərlə görüşüb

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində dövlət sərhədinin bilavasitə mühafizəsini həyata keçirən sərhəd bölmələrində Dövlət Sərhəd Xidmətinin rəhbər heyətinin sərhədçilərlə görüşməsi, xidməti və məişət şəraitlərinə baxış keçirilməsi, şəxsi heyəti qarşıdan gələn bayram münasibətilə təbrik etməsi ənənəsi davam etməkdədir.





Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətini həyata keçirən sərhəd döyüş məntəqələrində olmuş, təmas xəttində döyüş tapşırığını yerinə yetirən hərbi qulluqçularla görüşmüşdür.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən qürur duyan və xüsusi hazırlıq keçmiş heyət sırasında olmaları ilə fəxr edən sərhədçi hərbi qulluqçular düşmənin hər hansı təxribatının qarşısını almaq üçün daima hazır olmalarını məruzə etmiş, döyüş ruhlarının yüksək olmasını nümayiş etdirmişlər.

Dövlət Sərhəd Xidmətinin rəisi "Qazax" sərhəd dəstəsinin xidməti ərazisindəki əməliyyat şəraiti, həmçinin ərazi müdafiəsinin və sərhəd mühafizəsinin gücləndirilməsi məqsədilə görülən işlər haqqında Sərhəd Qoşunları Komandanının və digər rəhbər vəzifəli şəxslərin məruzələrini dinləmiş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarının ən yüksək səviyyədə icra edilməsi, döyüş hazırlığının daha da gücləndirilməsi, şəxsi heyətin döyüş ruhunun və vətənpərvərlik hislərinin yüksəldilməsi, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin yerli orqanları, Müdafiə Nazirliyinin xidməti ərazidə dislokasiya olunmuş hərbi hissə və birləşmələri ilə qarşılıqlı əlaqələrin daha yüksək səviyyədə təşkil olunması, Qazax və Ağstafa rayonlarında yerli icra hakimiyyəti orqanları və vətəndaşlarla münasibətlərinin genişləndirilməsi istiqamətində göstərişlərini vermişdir.

General-polkovnik Elçin Quliyev Qazax və Ağstafa rayonlarının ərazisində ərazi müdafiəsinin təkmilləşdirilməsi ilə yanaşı müasir sərhəd mühafizə infrastrukturunun yaradılması, sərhəd komendantlıqlarında və sərhəd döyüş məntəqələrində tikilən yeni xidməti binaların və əsgər kazarmalarının inşa vəziyyəti, məntəqələrdə quraşdırılmış modul tipli binalarda, səhra mətbəxlərində və səhra hamamlarında yaradılmış şəraitlə tanış olmuş, sərhəd döyüş məntəqələrinə yeni yolların salınması, sənaye işığının və qaz xətlərinin çəkilməsi məqsədilə görülən işlərin gedişatını yoxlamışdır.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev sərhəd döyüş məntəqələrində xidmət-döyüş fəaliyyətinin təşkilində fərqlənmiş hərbi qulluqçuları təltifləndirmiş, şəxsi heyətlə birgə nahar etmiş, qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə sərhədçiləri təbrik etmiş, çətin və məsuliyyətli, ağır olduğu qədər də şərəfli xidmətlərində uğur və müvəffəqiyyətlər arzulamışdır.

***"Azərbaycan"***




# Milli Məclisdə "Azərbaycan parlamentarizmi tarixi" kitabının təqdimatı olub

Dekabrın 28-də Milli Məclisdə "Azərbaycan parlamentarizmi tarixi" adlı ikicildlik kitabın təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan kitabın həmmüəllifi, Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova deyib ki, 2018-ci ili vacib və əhəmiyyətli edən onun 100 illik yubileylərlə zəngin olmasıdır. Prezident İlham Əliyevin 2017-ci il 16 may tarixli sərəncamına əsasən bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi qeyd olundu. İl ərzində həm ölkəmizdə, həm də xaricdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində çoxsaylı yubiley tədbirləri keçirildi. Bu yüz ilin hər günündə əldə etdiyimiz uğurlar, rastlaşdığımız çətinliklər, həyatımızın ən vacib dövrləri və bu dövrlərdə xalqımızın, dövlətimizin atdığı addımlar, ictimai-siyasi şərait və müqəddəs xəyallarımızın gerçəkliyə çevrilməsi istiqamətindəki səylərimizə qarşı yönəlmiş cəhdlər barədə çoxlu müzakirələr aparıldı, dəyərləndirmələr edildi. Dövlətimiz, xüsusilə Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yubileyinin yüksək səviyyədə qeyd olunması üçün lazımi addımlar atıb. Azərbaycan parlamenti də Prezident İlham Əliyevin cümhuriyyətin 100 illiyinin yüksək səviyyədə qeyd olunmasından irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün lazım olan bütün işləri görüb.



Qeyd edilib ki, Azərbaycan xalqı müstəqillik uğrunda istək və arzularını reallaşdırmaq, onun nəticəsi olan müstəqil dövləti qurmaq üçün böyük yol keçib, bütün çətinliklərə fədakarlıqla sinə gərib, ləyaqətlə yaşamaq haqqının olduğunu dünyaya sübut edib, bu gün müstəqil, qətiyyətli siyasət yeridən bir dövlətin xalqı olduğunu göstərib.




"Azərbaycan parlamentarizmi tarixi" kitabının önəmini vurğulayan Bahar Muradova deyib ki, kitabın tədqiqat obyekti Azərbaycan xalqının keçdiyi şərəfli yol, qərarların qəbulu ənənəsi, qədim dövrdə bu ənənələrin yaranmasından tutmuş ötən əsrə qədər keçən dövr, cümhuriyyətin yaranması, sovet dövrü, həmin dövrdə dəyişən şərtlər çərçivəsində, daha sonra isə 1991-ci ildə ölkəmizin müstəqilliyinin bərpasından sonra Azərbaycan parlamentinin keçdiyi yoldur. "Müəlliflər olaraq məqsədimiz Azərbaycanda tarixən qərarların qəbul edilməsi ənənəsini öyrənmək, parlamentin dövlət idarəçiliyi sistemində tutduğu yeri, oynadığı rolu dəyərləndirmək, eləcə də bu günə qədər bu sahədəki elmi-nəzəri tədqiqatları, mövqeləri özündə əks etdirən ümumiləşmiş tədqiqat əsəri ortaya qoymaq idi. Kitabın birinci cildi qədim dövrdən 1991-ci ilə qədər, ikinci cildi isə 1991-ci ildən 2018-ci ilə qədər olan dövrü əhatə edir. Bu kitab gələcək elmi-tədqiqat əsərlərinin yaradılması üçün mühüm mənbə ola bilər. Kitab bu sahədə əldə olunmuş nailiyyətləri özündə birləşdirən ümumiləşmiş əsərdir", - deyə Bahar Muradova söyləyib.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, deputat, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, deputat, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, professor Hikmət Babaoğlu çıxışlarında vurğulayıblar ki, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd olunması və 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında sərəncamları onun dövlətçilik tariximizə, xüsusilə də cümhuriyyət tarixinə verdiyi yüksək qiymətin ifadəsidir. Eyni zamanda, bu sərəncamlar cümhuriyyət qurucularının xatirəsinə ehtiramı da dövlət səviyyəsində ifadə edir. Dövlət başçısı İlham Əliyevin imzaladığı hər iki sərəncam ölkəmizdə müstəqillik, milli dövlətçilik təfəkkürünün daha da möhkəmlənməsinə, inkişaf etdirilməsinə xidmət edir. Bu sərəncamlar mühüm siyasi və tarixi əhəmiyyətə malikdir. Həmin sərəncamlara əsasən ölkəmizdə və xaricdə genişmiqyaslı tədbirlər həyata keçirildi. Bu tədbirlərin içərisində Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclası və bu gün təqdimatı olan "Azərbaycan parlamentarizmi tarixi" kitabının işıq üzü görməsini xüsusi qeyd etmək lazımdır.

Bildirilib ki, parlamentarizmin tarixi, Azərbaycanda parlament ənənəsi haqqında da ilk dəfədir kitab dərc olunub. "Azərbaycan parlamentarizmi tarixi" kitabı ölkəmizdə mili parlamentarizmin tarixinə və inkişaf yoluna həsr olunan birinci kitab kimi böyük əhəmiyyətə malikdir. Nəşrlərdə Azərbaycan parlamentarizminin tarixi təkcə 100 il bundan əvvəl cümhuriyyət qurucularının yaratdığı parlamentin tarixi ilə əlaqəli şəkildə göstərilməyib. Müəlliflər həmçinin ölkəmizdə parlamentarizmin qədim tarixi ənənələrə malik olduğunu göstərmək üçün ilk dəfə olaraq bu istiqamətdə dərin, sistemli tədqiqatlar aparıblar.

Kitabın həmmüəllifi, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı bildirib ki, bu kitab Prezident İlham Əliyevin cümhuriyyətin 100 illiyi ilə bağlı imzaladığı sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinə bir töhfədir. Azərbaycanda ilk dəfə olaraq parlamentarizm tarixi haqqında kitab nəşr olunub. Bu kitabda göstərilir ki, ölkəmizdə qərarların qəbul edilməsinin ənənələri olub. Nəşrdə parlamentin keçdiyi yol, xalqımızı düşündürən problemlər və onların həlli məsələləri əksini tapıb.

Kitabın digər həmmüəllifi, AMEA-nın aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vasif Qafarov deyib ki, Azərbaycan xalqının müstəqilliyinə, suverenliyinə qarşı 100 il ərzində həyata keçirilən bütün cəhdlər uğursuzluğa düçar olub. O qeyd edib ki, "Azərbaycan parlamentarizmi tarixi" kitabı cümhuriyyətin 100 illiyinə töhfə olaraq işıq üzü görüb.

Qeyd edək ki, "Azərbaycan parlamentarizmi tarixi" kitabı Azərbaycan Respublikası Milli Məclisinin sifarişi ilə hazırlanıb. Kitabın elmi məsləhətçisi və redaktoru Milli Məclisin Sədri Oqtay Əsədov, müəllifləri AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı, Milli Məclis Sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova, AMEA-nın aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Vasif Qafarovdur.

# Azərbaycanda sənayenin və sahibkarlığın inkişafına həsr edilən tədbir keçirilib

















Dekabrın 28-də Bakıda rəsmi şəxslərin, aidiyyəti dövlət qurumlarının, iş adamlarının və ekspertlərin iştirakı ilə "Azərbaycanda sənayenin və sahibkarlığın inkişafı - 2018" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısının rəhbərliyi ilə sistemli islahatların 2018-ci ildə də davam etdirildiyini, bu ilin ölkə iqtisadiyyatı üçün uğurlu keçdiyini, iqtisadiyyatın prioritet sahələrində müsbət nəticələrin əldə olunduğunu, biznes və investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sənaye istehsalının və ixracının stimullaşdırılması və digər tədbirlər nəticəsində Azərbaycanın iqtisadi potensialının daha da artdığını qeyd edib. Azərbaycan iqtisadiyyatında qeyri-neft sənayesinin istehsal və ixrac potensialının, habelə Azərbaycanın tranzit imkanlarının böyük olduğunu və bunların reallaşdırılması məqsədilə Prezident İlham Əliyev tərəfindən qarşıya mühüm vəzifələr qoyulduğunu diqqətə çatdıran nazir Şahin Mustafayev rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının təşviqi məqsədilə təşkil olunmuş dəstək mexanizmlərinin uğurla həyata keçirildiyini bildirib.

Diqqətə çatdırılıb ki, bu istiqamətdə reallaşdırılan tədbirlər artıq öz nəticələrini verməkdədir. Belə ki, Azərbaycanda qeyri-neft sektorunun innovativ və yüksək texnologiyalara əsaslanan inkişafını təmin etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq, regionların sənaye potensialından daha səmərəli istifadə etmək məqsədilə ölkə başçısının müvafiq tapşırıqlarına əsasən sənaye parkları və məhəllələri yaradılıb, müvafiq infrastruktur qurulub, həmin ərazilərdə müasir texnologiya və standartlara uyğun müəssisələr fəaliyyətə başlayıb. Artıq sənaye parklarının və məhəllələrinin 70-dən çox rezidenti tərəfindən 5 milyard manatdan çox investisiya yatırılıb. Azərbaycanda 2016-cı ildən tətbiq olunan investisiya təşviqi mexanizmi çərçivəsində indiyədək 330 layihəyə investisiya təşviqi sənədi verilib, bu layihələrə 2,8 milyard manata qədər investisiya yatırılması və 22 minədək yeni iş yerinin açılması nəzərdə tutulub. Azərbaycanın 30 rayonu üzrə investisiya dəyəri 1,5 milyard manat olan 45 aqroparkın yaradılmasının təşviqi üzrə işlər davam etdirilib və artıq 18 aqropark fəaliyyətə başlayıb.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan regional və qlobal miqyaslı nəhəng infrastruktur və enerji layihələri barədə məlumat verib.

Sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyədək 35 min 600-dən çox sahibkara 2,2 milyard manatadək güzəştli kredit verilib, bu kreditlər hesabına 165 minədək yeni iş yerinin açılması imkanı yaranıb.

Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə bir sıra ixrac təşviqi mexanizmləri tətbiq olunub, xarici ölkələrə ixrac missiyaları həyata keçirilib.

Şübhəsiz ki, dövlət səviyyəsində sahibkarlığın, qeyri-neft sahəsində istehsalın və ixracın dəstəklənməsi üçün atılan addımlar Azərbaycanın iqtisadi imkanlarının daha da artmasına, sahibkarlığın davamlı inkişafına, Azərbaycan xalqının həyat səviyyəsinin davamlı olaraq yüksəlməsinə xidmət edəcək.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyatda özəl bölmənin payı artaraq ÜDM-də 84 faizə yaxın, məşğulluqda isə 76 faiz təşkil edib.

Şahin Mustafayev özəl bölmənin inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə ölkə sahibkarları adından Azərbaycan Respublikasının Prezidentinə təşəkkür edib.

Tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayev, vergilər naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, kənd təsərrüfatı naziri İnam Kərimov, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev dövlət başçısının sərəncamları ilə Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və səmərəli fəaliyyətlərinə görə təltif olunan 23 sahibkara medallarını, müxtəlif nominasiyalar üzrə seçilmiş 22 sahibkara İqtisadiyyat Nazirliyi tərəfindən verilən mükafatları təqdim ediblər.

# "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 753) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.2.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.2.10-cu maddə əlavə edilsin:

"4.2.10. "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq, banka və ya digər kredit təşkilatına pul vəsaitlərinin tutulmasına dair tələblərin göstərildiyi icra sənədinin təsdiq olunmuş surətinin verilməsi.".

2. 6-cı maddə üzrə:

2.1. 6.1-ci maddədə "Bu qanunun 6.4-cü maddəsində nəzərdə tutulan növbəlilik istisna olmaqla, eyni" sözləri "Eyni" sözü ilə əvəz edilsin;

2.2. 6.4-cü maddə ləğv edilsin.

3. 14.3-cü və 14.4-cü maddələr müvafiq olaraq 14.2-ci və 14.3-cü maddələr hesab edilsin.

4. 20.4-cü maddə (ikinci halda) 20.11-ci maddə hesab edilsin.

5. 21-ci maddə üzrə:

5.1. 21.1.1-ci və 21.1.3-cü (ikinci halda) maddələrdə "və ya" sözləri "və olduğu halda" sözləri ilə əvəz edilsin;

5.2. 21.1.8-ci maddədə "həcmi" sözündən sonra "(yuxarı həddi)" sözləri əlavə edilsin.

6. 23.2.2-ci maddədə "21.1.1-ci və 21.1.2-ci" sözləri "21.1.3-cü və 21.1.4-cü" sözləri ilə əvəz edilsin.

7. 27-ci maddədə ", yüklülüyə dəyişikliklər edilməsi və yüklülüyə xitam vermə" sözləri "və yüklülüyə dəyişikliklər edilməsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1429-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1429-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# Çikaqo meri Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar bəyannamə imzalayıb

Çikaqo şəhərinin meri Ram Emanuel Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar bəyannamə imzalayıb.

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin üzvlərinə və bütün dünya azərbaycanlılarına ünvanlanmış bəyannamədə 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Qafqaz bölgəsinin iqtisadi qüvvəsinə çevrildiyi, regionda sülhün, tolerantlığın və multikulturalizmin bərqərar olmasını təmin etdiyi bildirilir.

Sənəddə qeyd edilir ki, dünya üzrə azərbaycanlıların sayı 50 milyon, ABŞ-da isə 400 minə yaxındır. Vurğulanır ki, Azərbaycan ABŞ-ın müttəfiqi və strateji tərəfdaşıdır, insan haqlarının və bəşəri dəyərlərinin yayılmasına öz töhfəsini verir.

Diqqətə çatdırılır ki, 2015-ci ildə Çikaqo şəhərində təsis olduqdan sonra ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzi mədəniyyətlərin mübadiləsində, Çikaqo və Orta Qərb ştatlarında yaşayan azərbaycanlıların birləşməsində, Çikaqonun Azərbaycan icması isə Azərbaycan-ABŞ əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayıb.

Ölkəmizin xaricdə yaşayan azərbaycanlılarla əlaqələrini möhkəmləndirmək məqsədilə ümummilli lider Heydər Əliyev tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi nəzərə alınaraq 2018-ci il dekabrın 31-i Çikaqo şəhərində Azərbaycanlıların Həmrəylik Günü elan olunub.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1251-VQD nömrəli Qanunu) 38.1-ci maddəsinin ikinci cümləsinə "verilməməsinə," sözündən sonra "hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı yanlış məlumatların verilməsinə," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1377-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1377-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7, I kitab, maddələr 1414, 1427; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1250-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 221.4.7-ci maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanından" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan)" sözləri ilə əvəz edilsin.

2. 221.4.13-cü maddənin birinci hissəsində "müvafiq icra hakimiyyəti orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə, ikinci hissəsində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1374-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1374-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 152, № 9, maddələr 1830, 1843; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 414 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "və 207.7-ci (hər iki halda) maddələrində" sözləri ", 207.7-ci (hər iki halda) maddələrində, 221.4.7-ci maddəsinin birinci cümləsində və 221.4.13-cü maddəsinin birinci və ikinci hissələrində" sözləri ilə əvəz edilsin;

3.2. 1.19-1-ci bənddə "(birinci halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri "maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə" sözləri ilə, "həyata keçirir" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın;

3.3. 1.19-2-ci bənddə "birinci abzasında və ikinci abzasında (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri "birinci və ikinci hissələrində "orqan (qurum)" dedikdə" sözləri ilə, "həyata keçirir" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2018-ci il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599; 2010, № 4, maddə 276, № 10, maddə 841; 2013, № 11, maddə 1302; 2014, № 4, maddə 342; 2015, № 8, maddə 903, № 12, maddə 1439; 2016, № 2, II kitab, maddə 221; 2017, № 2, maddə 140, № 12, I kitab, maddə 2211; 2018, № 1, maddə 22) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.5-ci və 21.1-ci maddələrdə ismin müvafiq hallarında "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı" sözləri ismin müvafiq hallarında "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. 27.3-cü maddənin dördüncü cümləsində və 59-cu maddədə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1375-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1375-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610; 2009, № 10, maddə 779; 2016, № 4, maddə 661, № 6, maddə 1064, № 11, maddə 1840; 2017, № 6, maddə 1083) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci, 21.1-ci maddələrində, 27.3-cü maddəsinin dördüncü cümləsində və 59-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;"

3.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin qanunun 7.7-ci, 9.2-ci, 14.1-1.1-ci və 14.1-1.4-cü maddələrində, 15.5-ci maddəsinin ikinci cümləsində, 18-ci, 21.7-ci, 21-1.4-cü, 26.3-cü maddələrində, 27.3-cü maddəsinin birinci cümləsində və 48.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.3. 2.2-1-ci bənddə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri "orqan (qurum)" dedikdə" sözləri ilə, "dayanacaq məntəqələrinə və avtomobil duracaqlarına, habelə yerüstü və yeraltı keçidlərə və xüsusi operativ nəqliyyat vasitələri üçün əlavə yollara" sözləri "yeraltı keçidlərə, metro çıxışlarına və velosiped zolaqlarına" sözləri ilə, "həyata keçirir" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın;

3.4. 2.2-2-ci və 2.2-3-cü bəndlərdə "nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini" sözləri "orqan (qurum)" dedikdə" sözləri ilə, "həyata keçirir" sözləri "nəzərdə tutulur" sözləri ilə əvəz edilsin və həmin bəndlərdən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın;

3.5. 2.4-cü bənddə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "orqan (qurum)" sözləri ilə əvəz edilsin və həmin bənddən "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1294-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 13-1.2-ci maddəyə "istifadə qaydaları" sözlərindən sonra ", o cümlədən xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası qaydası" sözləri əlavə edilsin;

1.2. 113.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"113.1. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi halları istisna olmaqla, mallar gömrük ərazisinə gətirilməzdən əvvəl gömrük orqanlarına elektron formada qısa idxal bəyannaməsi verilir. Qısa idxal bəyannaməsinin verilməməsi bəyannaməçinin inzibati məsuliyyətinə səbəb olur, lakin gömrük rəsmiləşdirilməsinin və malların buraxılışının həyata keçirilməsinə mane olmur. Qısa idxal bəyannaməsinin formasını beynəlxalq standartlar və ticarət təcrübəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.";

1.3. 113.3-cü maddənin birinci cümləsi çıxarılsın;

1.4. 114.2-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu qanun 2019-cu il fevralın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1431-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1431-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 113.1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir.

4. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844) 28.4-cü bəndində ", 113.1-ci maddələrində, 113.3-cü maddəsinin ikinci cümləsində" sözləri "maddələrində, 113.1-ci maddəsinin üçüncü cümləsində, 113.3-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

Sabunçu rayonunun elektrik təchizatının yaxşılaşdırılması üçün 110/35/10 kV-luq "Bakıxanov" yarımstansiyasında yenidənqurma işləri aparılmış, yarımstansiyada yeni 35 və 10 kV-luq paylayıcı qurğular inşa edilərək eleqaz və vakuum tipli elektrik avadanlıqlarla təchiz olunmuş, 110/35/10 kV-luq 2x25 MVA gücündə transformatorlar 2x40 MVA gücündə transformatorlarla əvəz edilmişdir.




# 2018-ci il ərzində "Azərişıq" ASC tərəfindən geniş yenidənqurma işləri aparılıb







Xəzər rayonu Şüvəlan qəsəbəsində istilik kompleksinin 35/10 kV-luq 10 MVA gücündə, Türkan qəsəbəsində gülçülük kompleksinin 35/6 kV-luq 2x16 MVA gücündə 409 saylı, Qaradağ rayonunda 35/6 kV-luq 2x10 MVA gücündə 505 saylı, Abşeron rayonunda 35/6 kV-luq 10 MVA gücündə 506 saylı yarımstansiyalar inşa edilmişdir. "Bakı Ağ şəhər" şəhərsalma layihəsi çərçivəsində 110/35/10 kV-luq 2x50 MVA gücündə "Ağ şəhər-2" yarımstansiyası, 35/0,4 kV-luq 2 ədəd transformator məntəqəsi inşa edilmişdir. "Ağ şəhər-1" və "Ağ şəhər-2" yarımstansiyaları arasında ikidövrəli 14,4 km uzunluğunda 110 kV-luq kabel xətləri çəkilmişdir.

Qəbələ rayonunda 110/35/10 kV-luq 2x40 MVA gücündə "Qəbələ", İsmayıllı rayonunda 110/35/10 kV-luq 2x16 MVA gücündə "İsmayıllı", 110/35/10 kV-luq 10 MVA gücündə "Topçu", Ağdaş rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Ağdaş", Ağcabədi rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Ağcabədi-2", Sabirabad rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Cavad", Cəlilabad rayonunda 110/35/10 kV-luq 2x31,5 MVA gücündə "Cəlilabad", Lənkəran şəhərində 110/35/10 kV-luq 2x25 MVA gücündə "Lənkəran-2", Tərtər rayonunda 110/35/10 kV-luq 2x40 MVA gücündə "Tərtər", Quba rayonunda 35/10 kV-luq 4 MVA gücündə "Hil", 35/0,4 kV-luq 0,1 MVA gücündə "Qaladalı", Xaçmaz rayonunda 35/0,4 kV-luq 0,1 MVA gücündə "Susayqışlaq", Xızı rayonunda 35/6 kV-luq 4 MVA gücündə "Şurabad", 35/10 kV-luq 1,8 MVA gücündə "Baxışlı", Qəbələ rayonunda 35/10 kV-luq 2x10 MVA gücündə "Vəndam", İmişli rayonunda 35/6 kV-luq 2x4 MVA gücündə "Bəhrəmtəpə" yarımstansiyaları inşa edilmişdir.

Şabran rayonunda "Çıraqqala" aqroparkı üçün 35/10 kV-luq 4 MVA gücündə və 10/0,4 kV-luq 2x1000 kVA gücündə, Salyan rayonunda "Qızılağac" aqroparkı üçün 10/0,4 kV-luq 2x630 kVA gücündə, Qax rayonunda aqropark üçün 35/10 kV-luq 6,3 MVA gücündə, Tovuz rayonunda heyvandarlıq kompleksi üçün 10/0,4 kV-luq 2x1000 kVA gücündə, Füzuli rayonunda kənd təsərrüfatı obyekti üçün 10/0,4 kV-luq 2x1000 kVA gücündə, Ağcabədi rayonunda fermer təsərrüfatı üçün 35/10 kV-luq 10 MVA gücündə yarımstansiyalar və transformator məntəqələri inşa edilərək istismara verilmişdir.

Xəzər rayonu Şağan qəsəbəsində 6/0,4 kV-luq 2x400 kVA gücündə 33 saylı transformator məntəqəsi, Yasamal rayonunda 10/0,4 kV-luq 2x630 kVA gücündə 1151 saylı transformator məntəqəsi müasir avadanlıqlarla təmin olunmuş, Abşeron rayonu Güzdək qəsəbəsində və Binəqədi-Novxanı yolunda 10 kV-luq paylayıcı qurğular tikilmişdir.

Əhalinin elektrik təchizatının yaxşılaşdırılması üçün 390 ədəd komplekt transformator məntəqəsi quraşdırılmış, 121,8 km 35 kV-luq, 481,7 km 6-10 kV-luq, 1017,7 km 0,4 kV-luq kabel xətləri çəkilmiş, 33,7 km 110 kV-luq, 103,5 km 35 kV-luq, 962,8 km 6-10 kV-luq, 4514,7 km ÖİN 0,4 kV-luq hava xətləri, 32 km 0,4 kV-luq hava xətləri çəkilmiş və təmir olunmuş, 149131 ədəd müxtəlif gərginlikli dayaqlar quraşdırılmışdır.

Cari il ərzində 108 ədəd 110 kV-luq, 258 ədəd 35 kV-luq, 2750 ədəd 6 və 10 kV-luq yarımstansiyalarda, 146,4 km 110 kV-luq, 660 km 35 kV-luq, 1750 km 6 və 10 kV-luq 4000 km-dən artıq 0,4 kV-luq elektrik veriliş xətlərində əsaslı və cari təmir işləri yerinə yetirilmiş, avadanlıqlarda və xətlərdə texniki vəziyyətinin yoxlanılması təmin olunmuş, müəyyən edilmiş nasazlıqlar aradan qaldırılmaqla təmir və sınaq işləri aparılmış, 950 ədəd 6-10 kV-luq, 27 ədəd 35 kV-luq transformator əsaslı təmir olunmuşdur.

2018-ci ildə regionlarda elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi uçotunun dəqiq aparılması üçün istismar müddətini başa vurmuş 0,4 kV-luq köhnə elektrik şəbəkələrində yenidənqurma işləri aparılması nəzərdə tutulmuşdur. Cari ildə bu işlər 119 kənddə yekunlaşmışdır. Bu məqsədlə 34100 abonentin elektrik sayğacları və yaşayış evlərinin elektrik xətləri həyətyanı sahələrdən çölə çıxarılmış, 58220 ədəd 0,4 kV-luq dayaq quraşdırılmış, 2535,7 km-dən çox ÖİN xətləri çəkilmişdir.

"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 22 dekabr 2017-ci il tarixli 3535 saylı sərəncamının icrası ilə əlaqədar "Azərişıq" ASC-nin balansına verilmiş Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən külək elektrik stansiyalarında təmir və bərpa işləri aparılır. Stansiyaların istehsal etdiyi elektrik enerjisinin ötürülməsi üçün Yeni Yaşma Külək Elektrik Stansiyasının ərazisində 20/110 kV-luq 2x40 MVA gücündə və 10/35 kV - luq 4 MVA gücündə yarımstansiyalar inşa edilmiş, 110 kV-luq 4-cü Yaşma və 35 kV-luq Yaşma bağları hava xətləri ilə əlaqələndirilmişdir.

Hesabat müddəti ərzində ümumilikdə 245620 ədəd olmaqla, əhali istehlakçılarına aid 223386 ədəd, qeyri-əhali istehlakçılarına aid 22234 ədəd uçot dəstləri yenisi ilə əvəz olunmuşdur. Bundan əlavə, ümumilikdə 186672 ədəd, o cümlədən əhali istehlakçılarına aid 171739 ədəd, qeyri-əhali istehlakçılarına aid 14933 ədəd köhnə elektrik sayğacları yenisi ilə əvəz edilmişdir. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjsinə görə ümumi yığım səviyyəsi hesabat dövründə 96,5%-ə, elektrik enerjisi itkiləri 9,7%-ə qədər azaldılmışdır.

# Elektrik enerjisi istehsalı artıb, yanacaq sərfiyyatına isə qənaət edilib

İyul ayında elektrik enerji sistemində yaranan böhran səbəbindən Prezident İlham Əliyev tərəfindən yaradılan Dövlət Komissiyasının yekun rəyindən sonra həyata keçirilən islahatlar və "Ölkə enerjisistemində yaranmış kritik vəziyyətin aradan qaldırılması məqsədilə hazırlanmış reabilitasiya üzrə Tədbirlər Planı"na uyğun olaraq görülən işlər müsbət nəticəsini verməkdədir.

Belə ki, görülən işlərin nəticəsi olaraq ötən ilin müvafiq dövrü ilə müqayisədə orta hesabla gündəlik 5.5 milyon kVt/s artıq elektrik enerjisi istehsal edilir. Ən əsası isə 5.5 milyon kVt/s artım olmasına baxmayaraq, ötən ilin müvafiq dövri ilə müqayisədə istehsal prosesində şərti yanacaq sərfiyyatı hər kVt/s-a görə 1-2 qramadək azalıb. Beləliklə, daha az yanacaq sərf edilməklə həm yanacağa qənaət olunub, həm də daha çox elektrik enerjisi istehsal edilib.

***"Azərbaycan"***

# 11 ayda 1,5 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac olunub

Cari ilin yanvar-noyabr aylarında Azərbaycan ümumilikdə 17,9 milyard dollarlıq məhsul ixrac etmişdir ki, bu da yanvar-oktyabr aylarına nisbətən təxminən 600 milyon dollarlıq çoxdur. Sözügedən dövrdə qeyri-neft məhsullarının da ixracı kifayət qədər artmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin dekabr ayı üzrə "İxrac icmalı"nda bildirilir ki, ilin əvvəlindən ötən 11 ay ərzində qeyri-neft məhsullarının ixracında 10,5 faiz (145 milyon dollarlıq) artım qeydə alınmışdır. Təkcə ötən ay 181 milyon dollarlıq qeyri-neft məhsulları ixrac edən Azərbaycan istehsalçılarının ilin əvvəlindən xaricə göndərdikləri bu cür məhsulların dəyəri 1,5 milyard dollardan çox olmuşdur.

İcmalda verilən məlumata görə, istehsalçılarımız hesabat dövründə (yanvar-noyabr aylarında) qonşu Rusiya Federasiyasına 555,4 milyon, qardaş Türkiyəyə 321,3 milyon, uzaq İsveçrəyə 123,3 milyon, yaxın Gürcüstana 117,1 milyon, MDB tərəfdaşımız Qazaxıstana 41,1 milyon dollarlıq qeyri-neft məhsulları ixrac etmişlər. 2017-ci ilin eyni dövrünə nisbətən Azərbaycanın qeyri-neft məhsullarına tələbatın artdığı ölkələrin siyahısında 42 faizlə Qazaxıstan öndədir. Sonrakı yerlərdə 22 faiz artımla Türkiyə və 12 faiz artımla Rusiya Federasiyası gəlir. İsveçrə və Gürcüstana ixrac olunan qeyri-neft məhsullarımızın həcmində isə azalma müşahidə edilmişdir - müvafiq olaraq 8 və 13 faiz.

İxrac edilən qeyri-neft məhsullarının çeşidinə gəldikdə, hesabatda bildirilir ki, 11 ay ərzində xaricdə daha çox Azərbaycan pomidoru satılıb - 162,2 milyon dollarlıq. Pomidordan sonra xaricdə daha çox alıcısı olan digər iki məhsul isə qızıl (107,2 milyon dollarlıq) və xurmadır (89,1 milyon dollarlıq). Ümumilikdə cari ilin yanvar-noyabr aylarında Azərbaycan daha çox meyvə-tərəvəz (495 milyon dollarlıq), plastmas və ondan məmulatlar (110,3 milyon dollarlıq), alüminium və alüminium məmulatları (106,6 milyon dollarlıq), qara metal və metal məmulatları (78,9 milyon dollarlıq), pambıq lifi (70,9 milyon dollarlıq), kimya sənayesi məhsulları (73,3 milyon dollarlıq), elektrik enerjisi (65 milyon dollarlıq), pambıq ipliyi (21,3 milyon dollarlıq) ixrac etmişdir.

# Azərbaycanla İran arasında ticarət dövriyyəsi 73 faiz artıb

İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti və İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslaminin rəhbərlik etdiyi İran nümayəndə heyəti Astara yükaşırma terminalının tikintisinin gedişi ilə tanış olub, Astaraçay çayı üzərində yeni körpünün inşa olunacağı əraziyə baxış keçiriblər.

Nümayəndə heyətinə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, "Azərbaycan Dəmir Yolları" QSC-nin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin, Astara Rayon İcra Hakimiyyətinin, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbər şəxsləri daxildir.

Qeyd edək ki, Astara yükaşırma terminalı 35 hektar sahədə yerləşir və tikinti işləri iki mərhələ üzrə həyata keçirilir. Artıq birinci mərhələ üzrə Astaraçay və Kəmərbəndi körpüsü arasında 1400 metrlik dəmir yolunun, Bağçasaray körpüsünün, eləcə də Kəmərbəndi körpüsünün Ərdəbil



və Rəşt istiqamətində 1440 metr uzunluğunda avtomobil yolunun tikintisi tamamlanaraq istifadəyə verilib. Astara yükaşırma terminalının 10 hektar ərazisində isə torpaq işlərinin 90 faizi, suötürücü kanalın tikintisi işlərinin 85 faizi yerinə yetirilib, 1,6 km uzunluğunda dəmir yol xətti inşa olunub, 1800 m2-lik yükdoldurma-yükboşaltma platforması və gömrük binası tikilərək istifadəyə verilib. Ümumilikdə, tikinti-quraşdırma işlərinin 2020-ci ilin birinci rübünün sonunadək başa çatdırılması nəzərdə tutulur.

Sonra Azərbaycan və İran nümayəndə heyətləri Astaraçay çayı üzərində yeni körpünün tikiləcəyi əraziyə baxış keçiriblər. Qeyd edək ki, körpünün uzunluğu 100 metr, eni 18 metrə yaxın olacaq.

İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslaminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan-İran əlaqələrindən danışan nazir Şahin Mustafayev son illərdə ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndiyini vurğulayıb. Təkcə son 5 ildə Azərbaycan və İranın dövlət başçıları arasında 12 görüş olub, 100-dən çox qarşılıqlı səfər həyata keçirilib. İndiyədək ölkələrimiz arasında 150-dən çox sənəd imzalanıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı sahələrində 700-dən çox İran şirkəti qeydiyyatdan keçib. Ölkələrimiz arasında ticarət dövriyyəsi 2017-ci ildə 16 faizi, 2018-ci ilin yanvar-sentyabr aylarında isə 73 faiz artıb. Azərbaycan və İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsal edilir, Bakıda Azərbaycan-İran klinikası açılıb, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodu tikiləcək.

İqtisadiyyat naziri Şahin Mustafayev ölkələrimizin sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrlə yanaşı, nəqliyyat sahəsində də uğurla əməkdaşlıq etdiyini, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında hər iki ölkənin rolunu vurğulayıb. Qeyd edib ki, 2018-ci il "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" ilə 260 min ton yük daşınıb. Bu, 2017-ci ilin ötən dövrünə nisbətən 10 dəfə çoxdur.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslamin ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyini qeyd edib. Hər iki ölkənin dövlət başçısının İran-Azərbaycan əlaqələrinin inkişafına önəm verdiyini vurğulayan Məhəmməd Eslamin Azərbaycan nümayəndə heyətinin İrana növbəti səfərinin də əlaqələrin inkişafına, xüsusilə də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyini qeyd edib.

Görüşdə iqtisadi-ticarət əlaqələrinə, nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişlənməsinə, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafına dair müzakirələr aparılıb.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycan-Tacikistan iqtisadi əlaqələrinin inkişafı üçün imkanlar genişdir

İqtisadiyyat naziri, Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Tacikistanda səfərdə olub.

Nümayəndə heyətinə "Azərbaycan Dəmir Yolları" QSC-nin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin, Dövlət Neft Şirkətinin, Azərbaycan Sənaye Korporasiyasının rəhbər şəxsləri daxildir.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Tacikistanın Baş naziri Koxir Rəsulzadə ilə görüşüb. Görüşdə nümayəndə heyətinin rəhbəri Şahin Mustafayev Azərbaycan-Tacikistan əməkdaşlığının genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin mühüm əhəmiyyətini vurğulayıb. Bildirilib ki, ticarət əlaqələrimiz inkişaf edir, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir, ölkələrimiz arasında Hökumətlərarası Komissiya fəaliyyət göstərir, birgə tədbirlər təşkil edilir. İndiyədək Azərbaycan və Tacikistan arasında 60-a yaxın sənəd imzalanıb. 2018-ci ilin yanvar-noyabr aylarında ticarət dövriyyəsi 3,1 dəfə artıb.

Nazir Şahin Mustafayev iqtisadi-ticarət əməkdaşlığının inkişafı üçün böyük potensialın olduğunu vurğulayaraq sənaye, kənd təsərrüfatı, ticarət, investisiya, İKT, nəqliyyat və digər sahələrdə əlaqələrin inkişafı perspektivlərindən danışıb.

Tacikistanın Baş naziri Koxir Rəsulzadə Azərbaycan nümayəndə heyətinin



Tacikistana səfərinin, aparılan müzakirələrin Azərbaycan-Tacikistan əlaqələrinin genişləndirilməsində əhəmiyyətli olacağını vurğulayıb, ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan-Tacikistan iqtisadi əməkdaşlığının genişləndirilməsi istiqamətləri müzakirə edilib.

Sonra Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Neymətulla Hikmətullazadə ilə görüşüb.

Hər iki ölkənin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş görüşdə Azərbaycan və Tacikistan arasında əməkdaşlığın genişləndirilməsi tədbirləri barədə fikir mübadiləsi aparılıb, Tacikistana kənd təsərrüfatı və sənaye məhsullarının ixracına, ixrac missiyalarının təşkilinə, investisiya layihələrinə dair məlumat mübadiləsinin aparılmasına, birgə müəssisələrin yaradılması imkanlarına, nəqliyyat-tranzit sahəsində əlaqələrin genişləndirilməsinə, Transxəzər nəqliyyat dəhlizinə əlavə yük həcmlərinin cəlb edilməsinə, Azərbaycan peyklərindən istifadəyə, kənd təsərrüfatı sahəsində əməkdaşlığa, Düşənbə-Bakı birbaşa hava reysinin bərpa edilməsinə dair müzakirələr aparılıb.

İqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, hazırda Azərbaycan-Tacikistan əlaqələri müxtəlif sahələrdə inkişaf edir və bu əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit əlaqələridir. Vurğulanıb ki, ölkələrimiz arasında dəmir yolu və hava nəqliyyatı, beynəlxalq avtomobil daşımaları sahələrində hökumətlərarası sazişlər imzalanıb. Azərbaycanın əlverişli geostrateji mövqedə, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini, ölkəmizin böyük tranzit potensialını diqqətə çatdıran Şahin Mustafayev Tacikistanla logistika-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi imkanlarını, Tacikistanın ölkəmizin nəqliyyat-tranzit potensialından daha geniş şəkildə istifadə edə biləcəyini qeyd edib. İqtisadiyyat naziri bildirib ki, hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Bu infrastrukturdan və potensialdan istifadə olunmaqla nəqliyyat-tranzit sahəsində əlaqələrin inkişafı üçün imkanlar genişdir. Nazir Şahin Mustafayev bu sahədə əməkdaşlığın inkişafına, məlumat mübadiləsinə, nəqliyyat-logistika strukturları arasında birbaşa və uzunmüddətli əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb.

Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Neymətulla Hikmətullazadə hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşün səmərəli olduğunu, aparılan müzakirələrin Tacikistan-Azərbaycan əlaqələrinin genişləndirilməsində əhəmiyyətli olacağını vurğulayıb, iqtisadi-ticarət əməkdaşlığının perspektivlərinə dair fikirlərini bölüşüb.

Görüşdə həmçinin Azərbaycan və Tacikistan arasında sənaye məhsullarının, xüsusilə də Azərbaycanda istehsal olunan elektrik avadanlıqlarının Tacikistana ixracına, yerli məhsullarımızın Tacikistanda həyata keçirilən layihələrdə istifadəsinə, Tacikistanda keçirilən tenderlərdə Azərbaycan şirkətlərinin iştirakına, sənaye məhsullarımızla yaxından tanışlıq məqsədilə Azərbaycanın sənaye müəssisələrinə səfərlərin təşkilinə, Tacikistanda təqdimatların keçirilməsinə dair müzakirələr aparılıb.

Bundan başqa, kənd təsərrüfatı, xüsusilə pambıqçılıq, ipəkçilik sahələrində təcrübə mübadiləsinə və əməkdaşlığa, turizm sahəsində əlaqələrin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Azərbaycanın yeni döyüş sursatı sınaqdan uğurla çıxdı

Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisələrində yaradılan və 125 millimetrlik tank topları üçün nəzərdə tutulmuş döyüş sursatının poliqon sınaqları keçirilib. MSN-in mütəxəssislərinin, Müdafiə Nazirliyinin döyüş texnikasının və şəxsi heyətinin iştirakı ilə aparılan sınaqlarda 125 millimetrlik tank topları üçün nəzərdə tutulmuş döyüş sursatının ballistik xüsusiyyətlərinin yoxlanılması məqsədilə Silahlı Qüvvələrin istismarında olan müasir T-90C tipli tankdan atışlar keçirilib və müsbət nəticə əldə edilib.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, yüksək dağıdıcı





qüvvəyə malik 125 millimetrlik artırılmış qüvvəli qəlpəli-fuqaslı mərmili atəş yığımı Silahlı Qüvvələrin arsenalında olan T-72, T-90C tipli tanklarda quraşdırılan 125 millimetrlik tank topundan atəş aparmaq üçün istifadə olunur. Atəş yığımı düşmənin canlı qüvvəsinə, səhra tipli istehkam qurğularına, artilleriya, minaatan, raket qurğularının atəş mövqelərinə və müxtəlif növ atəş vasitələrinə zərər vurmaq üçün nəzərdə tutulub.

Atəş yığımının praktiki mərmili variantı ilə keçirilən sınaqların nəticələrinə görə döyüş sursatının yüksək ballistik xüsusiyyətlərə malik olması, etibarlılığı və xidməti davranma zamanı təhlükəsizliyi tam təsdiq edilib.

# Gəncə Yeni il ərəfəsində









# Paytaxtda abadlaşdırılan növbəti həyət istifadəyə verilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.

AZƏRTAC xəbər verir ki, dekabrın 28-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Nərimanov rayonu, Atatürk prospekti 37, 37A, 39 ünvanında 1500 nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan və 1300 kvadratmetr sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə ərazidə uşaq oyun elementləri, mini-futbol və şahmat meydançaları, həmçinin 500 kvadratmetr velosiped yolu salınıb. Bu cür meydançaların salınmasında əsas məqsəd gənclərin sağlam həyat tərzi sürmələrinə, sağlamlıqlarını möhkəmləndirmələrinə, asudə vaxtlarını səmərəli keçirmələrinə, o cümlədən onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılmasına nail olmaqdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac və kol əkilib, 3500 kvadratmetr ərazidə qazon salınıb, 6 söhbətgah və sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıb.

Nərimanov rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan on ikinci həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# "Fənlərin dostluğu" olimpiadasının qalibləri mükafatlandırıldı

"Hədəf" STEM liseyində "Fənlərin dostluğu" olimpiadasının qaliblərinin mükafatlandırma mərasimi keçirildi. Olimpiada Təşkilat Komitəsinin nümayəndəsi Elvin Əliyev bildirdi ki, artıq 9-cu dəfədir keçirilən olimpiadada Bakı, Sumqayıt, Xırdalan şəhərləri də daxil olmaqla 10 müxtəlif bölgənin IX-X sinif şagirdləri iştirak edib. Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilmiş bu yarışma hər il olduğu kimi, bu il də interaktiv şəkildə təsis edilib və məqsəd fənlərarası əlaqəni yoxlamaqdır.



Olimpiadanın ideya müəllifi, "Hədəf" STEM Liseyinin direktoru Şəmil Sadiq qeyd etdi ki, 10 il əvvəl təsis edilən bu olimpiadanın gələcəkdə türk dünyasının məktəbliləri arasında bir yarışmaya çevrilməsi üçün yeni layihə işlənilib. Bu olimpiadanın keçirilməsi fənlərarası əlaqəni inkişaf etdirmək, istedadlı şagirdləri üzə çıxarmaq, şagirdlərdə məntiqi təfəkkürün artırılması, onlara fənləri sevdirmək məqsədini güdür.

Tədbirdə iştirak edən Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, Elm və təhsil komitəsinin üzvü Musa Quliyev Azərbaycanda təhsil sahəsində həyata keçirilən yeni islahatlara toxunaraq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə göstərdikləri xüsusi diqqətin artıq öz töhfəsini verdiyini söylədi.

"Bu gün azərbaycanlı uşaqların səsi dünyanın hər yerindən gəlir. Bu da çox qürurvericidir" deyən Musa Quliyev qeyd etdi ki, Azərbaycanda təhsilin inkişafı üçün hər bir şərait yaradılıb: "Bizi savadlı millət kimi tanıyırlar. Təhsil sisteminin məqsədlərindən biri təhsilli, yüksək keyfiyyətli insan yetişdirməkdir. Düşünürəm ki, "Hədəf" liseyi Azərbaycan təhsilinə yenilik gətirib. Uşaqlar bizim gələcəyimizdir və o gələcəyin bünövrəsini indidən yaxşı təhsillə qoymalıyıq".

Mərasimdə "Fənlərin dostluğu"na dair səhnəcik nümayiş etdirildikdən sonra olimpiadanın qalibləri olan 14 şagird mükafatlandırıldı. Onlara planşet, digər dəyərli hədiyyələr və sertifikatlar təqdim olundu.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi 221100 "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə

*açıq tender elan edir*

**Tender 2 LOT üzrə keçirilir:**

**LOT-1.** Hesablama texnikası və avadanlıqlarına xidmətlərin göstərilməsi.

**LOT-2.** İnzibati binada profilaktik dezinfeksiya işlərinin aparılması.

Tender iştirakçılarına təklif edilir ki, təklifləri möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100,00 (bir yüz) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1005. M.İbrahimov küçəsi, 8.**
**Əlaqələndirici şəxs: Sadıxov İsmayıl. Tel.: 050-230-01-22.**
**Dövlət Xəzinədarlıq Agentliyi.**
**VÖEN: 1401555071.**
**Kodu: 210005.**
**SWIFT: CTREAZ22.**
**M/h: AZ41NABZ01360100000003003944**
**Strateji Araşdırmalar Mərkəzi.**
**VÖEN: 1301595701.**
**İBAN: AZ75CTRE00000000000005478301.**
**Büdcə səviyyəsinin kodu: Fond 7.**
**Büdcə təsnifatının kodu: 142340.**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq xidmət üzrə lisenziyası;*
- *iddiaçının tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 yanvar 2019-cu il tarixdə saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 15 fevral 2019-cu il tarixdə saat 17:00-dək Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri 18 fevral 2019-cu il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

*Təkrar*

## Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün təsərrüfat və azqiymətli malların satın alınması üzrə

*tender elanı*

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq təsərrüfat və azqiymətli malların satın alınması üzrə açıq tender keçirir.

Tender proseduru 31 yanvar 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 15 mart 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank zəmanəti formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son 2 (iki) il ərzində təsərrüfat və azqiymətli malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 30 yanvar 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 21 yanvar 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

4. İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BİK: NABZAZ2C**

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

5. Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

6. Malların təqdim edilmə müddəti: satınalma müqaviləsi imzalandığı gündən sifariş əsasında 1 (bir) il müddətində.

7. Qiymətləndirmə meyarları: maliyyə amili və korporativ müştərilərin sayı.

8. Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxslər:

Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22, daxili (428).

Zöhrab Səfərəliyev (İnzibati departament). Telefon: 493-11-22, daxili (101).

***Tender komissiyası***

# Suriya ordusu Mənbicə girdi

Suriya hökuməti YPG terrorçu təşkilatının "Türkiyənin müdaxiləsi"ndən müdafiə olunmaq üçün zəbt etdiyi rayonları tutmaq çağırışına reaksiya vermişdir. Suriya Silahlı Qüvvələri Baş Qərargahından verilən məlumata görə, ordu Mənbic şəhərinə daxil olmuş və Suriya Ərəb Respublikasının dövlət bayrağını qaldırmışdır.



YPG Türkiyənin Mənbicdə hərbi əməliyyata başlayacağından ehtiyat edirdi. ABŞ və Türkiyə prezidentləri Donald Tramp və Rəcəb Tayyib Ərdoğan arasında danışıqlardan sonra Vaşinqton YPG silahlılarını Mənbicdən çıxarmağa razı olmuşdu. Buna cavab olaraq Ankara hərbi əməliyyatı təxirə salmışdı.

# Türkiyədə İŞİD-in 50-dən çox üzvü saxlanıldı

Türkiyə polisi terrorçuluq fəaliyyətində şübhəli bilinən 52 nəfəri saxlamışdır. Daha 12 nəfər axtarılır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.



Məlumata görə, Ankara prokurorluğu İŞİD terrorçu təşkilatı ilə əlaqədə şübhəli bilinən 64 nəfərin saxlanmasına order vermişdir.

Qeyd olunur ki, şübhəli şəxslər terror aktları hazırlaya və sosial şəbəkələr vasitəsilə yeni üzvlər cəlb etməyə, habelə Suriya ərazisində gedən döyüş əməliyyatlarında iştirak edə bilərdilər.

Xüsusi əməliyyat zamanı saxlanılanların mənzillərində onların İŞİD-ə mənsubluğunu sübut edən dəlillər, o cümlədən silah və rəqəmli daşıyıcılarda sənədlər aşkar edilmişdir.

# FETÖ Pakistanda terrorçu təşkilat kimi tanındı

Pakistan Ali Məhkəməsi FETÖ təşkilatını terrorçu qruplaşma kimi tanımaq barədə qərar qəbul etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.




Məhkəmənin qərarı və antiterror doktrinasına müvafiq dəyişikliklər edilməsi barədə sərəncam Daxili İşlər Nazirliyinə göndərilmişdir.

Qərara uyğun olaraq, Pakistanda FETÖ-yə aid olan bütün məktəblər Türkiyənin "Maarif" dövlət fondunun balansına veriləcək. Fond Ankaranın adından Türkiyənin hüdudlarından kənarda təhsil proqramlarını reallaşdırır.

# Burkina-Fasoda ibtidai məktəb atəşə tutuldu

Dünən bir qrup silahlı Burkina-Fasonun Sourou ştatında yerləşən Toyeni şəhərində ibtidai məktəbə atəş açmışdır. Bu barədə yerli KİV xəbər verir.



Bunun ardınca kəndə jandarm qrupu göndərilmişdir. Lakin jandarm kəndin girişində pusquya düşmüş və atəşə məruz qalmışdır. Nəticədə 10 jandarm əməkdaşı həlak olmuş, 8-i yaralanıb xəstəxanaya yerləşdirilmişdir.

Xatırladaq ki, son altı ay ərzində Burkina-Fasoda terror hücumları nəticəsində 100-dən çox mülki şəxs və təhlükəsizlik qüvvələrinin nümayəndəsi həlak olmuşdur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Neftçala Suvarma Sistemləri İdarəsinin rəisi Elçin Əsədova anası

**ZƏRXANIM MÜƏLLİMƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, general-mayor Səhlab Bağırova anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3899
Qiyməti 40 qəpik